# Müstəqillik kursunun memarı

***Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə qeyd olunur. Azərbaycan xalqı öz müdrik liderinin rəhbərliyi ilə qazandığı mühüm tarixi nailiyyətləri ilə dünya birliyinin layiqli üzvlərindən birinə, söz sahibinə çevrilib. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlanmış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz beynəlxalq aləmdə layiq olduğu yüksəkliyə məhz ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, polad iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.***



*Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.*

**Nikolay BAYBAKOV,**
**keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri**

SSRİ-nin süqutu gedişində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda ilk illər anarxiya, özbaşınalıq, xaos baş alıb gedirdi. Həmin dövrdə ölkəyə rəhbərlik edənlərin dövlət idarəçiliyindəki səriştəsizliyi yenicə qazanılan müstəqilliyimizi məhvə aparırdı. Keçmiş SSRİ-nin dağılması prosesi bəzi respublikaların daxilində müəyyən gərginliklərlə müşayiət olunsa da, Azərbaycanda vəziyyət getdikcə ağırlaşır, ən mürəkkəb proseslər məhz bizim ölkəmizdə baş verirdi. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdu və bunun nəticəsində də 1 milyondan çox insan öz doğma yurdlarından qaçqın və köçkün düşmüşdü. Belə ağır məqamda xalqı öz arxasınca apara biləcək bir liderə böyük ehtiyac yaranmışdı.

Tarixi hadisələr də təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin həyatı daim Azərbaycan xalqı, onun taleyi ilə bağlı olub. Vətənin ən çətin anlarında ulu öndər Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək, xalqı bütün çətinliklərdən qurtarıb. 1993-cü ilin o ağır günlərində də xalqımızın yeganə ümid yeri Heydər Əliyev oldu. Xalqın təkidi ilə müstəqil Azərbaycanın rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev respublikanı düçar olduğu bəlalardan, başqa dövlətlərin vassalı olmaqdan, parçalanmadan xilas etdi. Ulu öndərin respublikamıza rəhbərliyi ilə xalqımız Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin olunması kimi ən böyük arzusuna çatdı.

Müasir Azərbaycan tarixi dedikdə, öncə, gözümüz önündə ulu öndərimiz, bütün varlığı ilə xalqına böyük məhəbbətlə bağlanmış Heydər Əliyev canlanır. O, özünün dediyi kimi, azərbaycanlı olması ilə daim qürur duyurdu: “Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən azərbaycanlıyam”. Ümummilli liderin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də azərbaycançılıq məfkurəsinin elmi-nəzəri və praktik əsaslarla işlənib hazırlanması, eləcə də, milli ideologiyamızın qayəsinə çevrilməsi oldu.

Ulu öndər Heydər Əliyev haqqında səmimi ifadə edilən hər bir fikirdə bir ucalıq, yüksək ictimai məna var. Müxtəlif ölkələrin siyasi liderlərinin ümummilli liderlə bağlı söylədiklərini bir yerə cəmləşdirsək, dünyanın ən dahi liderlərindən birinin siyasi portreti alınar.

Görkəmli dövlət xadimləri ulu öndərin siyasi fəaliyyətini, dövlət idarəçiliyindəki zəngin təcrübəsini, diplomatik uğurlarını çox yüksək qiymətləndiriblər. Onlardan bəzilərinə diqqət yetirək. Fransanın sabiq Prezidenti Jak Şirak Heydər Əliyevə olan heyranlığını gizlətmirdi: “Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim...

Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir”.

ABŞ-ın keçmiş prezidentlərindən olan Corc Buş isə demişdir: “Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm”.

Heydər Əliyev XX əsr Azərbaycan siyasətinin ən parlaq siması və müstəqillik kursunun memarıdır. Onun həyata keçirdikləri, nəzəri, praktiki diplomatiyaya verdiyi töhfələr hələ uzun illər araşdırılacaq, hər dəfə də yeni bir incəlik tapılacaq.

Ulu öndər ölkəyə rəhbərliyi dövründə Azərbaycanda ictimai-siyasi sabitliyi tam təmin etməyə nail oldu. Bu isə vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, beynəlxalq münasibətlər sisteminə inteqrasiyaya istiqamətlənən, sosial ədalət prinsipinə əsaslanan demokratik və hüquqi dövlət quruculuğuna imkan yaratdı. Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması tədricən beynəlxalq aləmdə də onun mövqeyini gücləndirdi. Bütün bunlar Heydər Əliyev qətiyyətinin təntənəsi idi.

Ölkədə demokratik prinsiplərin inkişafına geniş imkan, əlverişli şərait yaratmaq ulu öndərin qarşıya qoyduğu prioritet məsələlərdən idi. Bu baxımdan insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə həyata keçirilən hüquqi islahatların ən mühümü ulu öndərin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyması idi. 1998-ci il fevralın 10-da isə Azərbaycanda ölüm cəzası ləğv edildi. Bu tarixi addım humanizm, insanpərvərlik, ədalət ideyalarını uca tutan, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ümummilli lider Heydər Əliyevin həmin bəşəri dəyərlərə sadiqliyinin bariz nümunəsi idi. Müdrik şəxsiyyət deyirdi: “Mən, cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm”.

Ümummilli liderin rəhbərliyi altında demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, beynəlxalq standartlara əsaslanan köklü hüquqi islahatlar insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb olmuşdur. Heydər Əliyevin “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında” 1994-cü il 9 avqust tarixli fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Müstəqil dövlətimizin ilk milli konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkilərinin demokratik şəkildə keçirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həmin vaxtdan Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı.

Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsində – referendumda qəbul edildi. Bununla ölkəmizdə məhkəmə-hüquq islahatlarının əsası qoyuldu. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini təşkil etdi. Müstəqil Azərbaycanın ilk konstitusiyasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuş, insan hüquq və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin ali məqsədi kimi müəyyən edilmişdir. Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi qəbul edilmiş qanunlarda daha da inkişaf etdirilərək öz real təminatını tapmış və müvafiq hüquqi zəmin yaratmışdır.

Ulu öndərin mütəmadi olaraq apardığı islahatlar ölkədə qanunçuluğun inkişafı üçün hüquqi baza yaratmışdı. Konstitusiya hüquqlarının təminatı baxımından “Konstitusiya Məhkəməsi haqqında” Qanunun qəbul edilməsi və Konstitusiya Məhkəməsinin yaradılması demokratik-hüquqi dövlət quruculuğu yolunda atılmış uğurlu addım idi. 2002-ci il avqustun 24-də keçirilmiş referendum nəticəsində Konstitusiya Məhkəməsinin səlahiyyətlərində əhəmiyyətli dəyişikliklər edilməsi xüsusi qeyd olunmalıdır. Məhz bu dəyişiklikdən sonra Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ olan subyektlərin dairəsi xeyli genişlənmişdir.

Ölkəmizdə hüquqi islahatların həyata keçirilməsinin təmin edilməsi ulu öndərin qarşıya qoyduğu əsas vəzifələrdən olmuşdur. Bu məqsədlə 1996-cı ildə Hüquqi İslahat Komissiyasının yaradılması qarşıya qoyulan vəzifələrin reallaşdırılmasında əhəmiyyətli rol oynamışdır. Bu istiqamətdə aparılan islahatlar qanunların və digər normativ hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə, hüquq-mühafizə sisteminin yenilənməsi, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirləri özündə ehtiva edir. “Məhkəmələr və hakimlər haqqında”, “Konstitusiya Məhkəməsi haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında” qəbul olunan qanunlar və digər qanunvericilik aktları ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla, müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə əlverişli imkan yaratmışdır. Bütün bu nailiyyətlərin təməlində ümummilli lider Heydər Əliyevin müəllifi olduğu hüquqi dövlət və hüquqi sistem quruculuğu konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi dayanırdı.

Tarixi şəxsiyyətin milli dövlətçilik konsepsiyası müstəqil dövlətçiliyimizin bundan sonrakı inkişafının bütün mərhələlərini əhatə edəcək qədər uzaqgörən və bəşəridir. Elə buna görə də 2003-cü ilin prezident seçkiləri öncəsi Azərbaycan xalqına tarixi müraciətində ümummilli lider demişdir: “Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcəkdir”.

Bu gün Heydər Əliyevin yarımçıq qalmış ideyaları onun siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. 28 illik müstəqillik tarixi olan Azərbaycanın adı dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada çəkilir. Dövlət başçımızın bütün sahələr üzrə həyata keçirdiyi islahatlar, xüsusilə yeni idarəetmə sisteminə keçidlə bağlı atdığı qətiyyətli addımlar ölkəmizin reytinqini daha da yüksəldib. Bu gün ölkədə mütərəqqi və dünyəvi dəyərlərə uyğun islahatlar aparılmaqla demokratik, hüquqi və sivil dövlət quruculuğu yeni mərhələyə qədəm qoymuş, dönməz və dayanıqlı ictimai-siyasi sabitlik əldə edilməklə qanunun aliliyinə və insan hüquq və azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşmışdır. Ölkəmizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvericilik və institusional islahatlar daha da genişləndirilməkdədir.

Möhtərəm Prezidentimizin respublikamıza rəhbərliyinin ilk günlərindən ölkəmizin strateji yolunun dəyişməzliyini qətiyyətlə bəyan edərək dediyi: “Azərbaycanın qüdrətli dövlətə çevrilməsi üçün ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir sözləri tarixi gerçəkliyə çevrildi”.

***Mehdi ABDULLAYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru, hüquq üzrə fəlsəfə doktoru***